RESPUBLİKA 29 iyun 2019-cu il

# ƏBƏDİYYƏT QALASISAN, İSMAYIL!

## *Xalq yazıçısı İsmayıl Şıxlının anadan olmasından 100 il ötdü...*



**İstəkli dostum İsmayıl Şıxlı ilə bağlı xatirələrimə keçməzdən əvvəl bu il may ayının 11-də yazıçının 100 illiyinə həsr olunmuş Atatürk Mərkəzində keçirilən konfrans barədə qısaca danışmaq istərdim. Atalarımızın gözəl bir sözü var: "Niyyətin hara, mənzilin ora". Müqəddəs kitabımız "Qurani-Kərim"də də belə buyrulub: "Sən sidq-ürəklə mənə doğru bir addım atsan, mən də sənə doğru on addım atmış olaram"...**

Çoxdandı qeylü-qallı bir hadisə üzündən öz aləmimə, söz dünyama qapılaraq ədəbi məclislərdə iştirak etmirdim. Taleyin hökmü ilə İsmayıl Şıxlının anadan olmasının 100 illiyinə həsr edilən konfransda iştirak edəsi oldum. Hələ də xatirəsi qəlbimdə yaşayan İsmayıl Şıxlının nurlu çöhrəsi Atatürk Mərkəzinin konfrans zalını öz işığına qərq etmişdi. Konfransda iştirak edən ziyalılar, şairlər, yazıçılar, tədqiqatçılar, alimlər, millət vəkilləri, bir sözlə, qeylü-qallı zəmanədə insanlığı, mənəviyyatı dəyərləndirən kəslər həmin gün İsmayıl Şıxlının işığına yığışmışdılar. O gün elə bilirdim dünya mənimdir. İsmayıl Şıxlının sənət dünyasının pərəstişkarlarını bir arada görəndə son günlərdə canımda olan xəstəhal vəziyyətim də yaxşılaşdı.

Məclisi "Qazax" Xeyriyyə İctimai Birliyinin sədri professor İlham Pirməmmədov açaraq qeyd etdi ki, birliyimizin keçirdiyi bu tədbir özünə sevdalı ürəklərdə ədəbi heykəl ucaldan İsmayıl Şıxlı üçün məhəlli xarakter daşımır. İsmayıl Şıxlı türk dünyasının qeyrət, saflıq, nəciblik, mərdlik, alicənablıq timsalında olan qələm sahiblərindəndir... İsmayıl Şıxlının 100 illiyinə həsr olunmuş konfransın digər təşkilatçısı, Atatürk Mərkəzinin rəhbəri akademik, dilçi alim Nizami Cəfərovun çıxışı da iştirakçıların qəlbinə işıq təki axdı: "İsmayıl Şıxlı haqqında danışmaq xalqdan danışmaq deməkdir. İsmayıl Şıxlı yaradıcılığa şeirlə başlasa da, sonradan nəsrə keçib və burda böyük uğurlar qazanıb. Onun əsərlərini oxumaqdan yorulmuruq. Məhz buna görə də İsmayıl Şıxlı bütün oxucularının doğmasına çevrilib".

Nizami müəllim konfransın açılışında, sonunda və digər natiqlərin çıxışları arasında da maraqlı, yaddaqalan fikirlər söylədi. Bu fikirlər içərisində mən onun İsmayıl Şıxlının yaradıcılığa şeirlə başlaması fikrini xüsusilə vurğulamaq istəyirəm. Çünki bütün natiqlər (İlham Pirməmmədovdan başlamış, Musa Ələkbərliyədək) İsmayıl Şıxlı haqqında elmi fikirlər və xatirələr söyləyərkən sanki şair ruhları dilə gəlirdi. Bu, xüsusilə poeziyamızın ağsaqqalı, Xalq şairi Nəriman Həsənzadənin çıxışında daha parlaq şəkildə özünü göstərdi. Professor Buludxan Xəlilovun İsmayıl Şıxlı yaradıcılığı, şəxsiyyəti haqqında söylədiyi fikirlər dağların döşündən qaynayan bulaq kimi könülləri sərinlədir, qəlbləri məftun edirdi. Onu belə odlu ürəklə danışmağa vadar edən də İsmayıl Şıxlı qələminin qüdrəti idi. Məti Osmanoğlunun çıxışı da öz səmimiliyi, sevimli müəllliminə sonsuz ehtiramı ilə konfrans iştirakçılarını ovsunladı. O, müəllimi İsmayıl Şıxlı haqqında danışarkən mən də yazıçının öz müəllimi professor Əli Sultanlı haqqında yazdığı "Onun səsi qulağımızdadır" məqaləsini xatırladım. İsmayıl müəllim yazırdı: "Əli Sultanlının mühazirələrini dinləyəndə gah şair olur, gah Jan Valjana dönür, gah da dünyanın sirrini dərk etmək istəyən Fausta çevrilirdik. Əli müəllim bizi yaman ovsunlamışdı. Yüz əllimiz də Əli Sultanlı olmaq istəyirdik...".

Tədbirdə professor Təyyar Salamoğlunun da çıxışı İsmayıl Şıxlı yaradıcılığını elmi cəhətdən əhatəli tədqiq etməsiylə səmimi qarşılandı.

Konfransda İsmayıl Şıxlının oğulları Fərrux və Elçin Şıxlı da həm ataları haqqında ürək sözlərini dedilər, həm də konfrans iştirakçılarına öz təşəkkürlərini bildirdilər. Tədbirin sonunda İsmayıl Şıxlının oğullarıyla, İlham Pirməmmədovla, Xalq şairimiz Nəriman Həsənzadə ilə, gənclik dostum Nizami Cəfərovla və digər dostlarımla görüşdüm. Məni bağrına basan Nəriman Həsənzadənin konfrans iştirakçılarına dediyi: "İsmayıl Şıxlı Fəzaili mənə tapşırıb deyərdi: "Nəriman, Fəzailin şeirlərini qəzetində çap elə. O haqq vergili şairdir", sözləri məni həm kövrəltdi, həm də qürurlandırdı ki, vaxtilə ədəbiyyatda himayədarım İsmayıl Şıxlı olub, mən də o qüdrətli qələm sahibinin etimadını doğrultmuşam. Ömür Günəşim qüruba yaxınlaşsa da, Allaha çox-çox şükürlər edirəm ki, ədəbi bəhrəmi az da olsa verə bilmişəm...

Artıq İsmayıl Şıxlının bədii əsərlərini və elmi irsini mütaliə edib tamamlamaq üzrəyəm. Yazıçının indiyə qədər tədqiqatçılar tərəfindən lazımınca tədqiq edilməyən "Ölən dünyam" romanını da dönə-dönə oxuyuram. Hadisələrin bədii təsviri düşüncəmi alıb-aparır. Romanının son hissəsi o dövrdə baş verən hadisələr haqqında məndə aydın təsəvvür yaradıb. Aşağıdakı parçaya diqqət edək:

"...Keçəl Xondulu evin ətrafını dolaşdı və birdən gördü ki, Həsən ağanın balaca oğlu Söhrab təzə bir araba təkərini tövlənin böyründə gizlətmək istəyir. Atını birbaş onun üstünə sürdü. Uşağı qamçı ilə budaladı. Güllü xanım bunu gördü və əlini kəmərin altında gizlətdiyi naqana uzatdı. İstədi güllələrin hamısını onun sinəsinə doldursun. Ani olaraq arabadakılara baxdı. İndi Alqazax uşağından başıpapaqlı qalmamışdı.

...Keçəl Xondulunun uşağı döyməsini bayaqdan marığa yatan Alan da görmüşdü. O, əvvəlcə zingildədi, qabaq ayaqları üstündə sürünə-sürünə onlara yaxınlaşdı və birdən atın belinə sıçradı. Xondulunun boynundan yapışıb yəhərdən saldı. Sonra xirtdəyindən yapışdı. Yoldaş Fətullayev ətrafa boylandı.

- Xondulu hanı? - deyə soruşdu.

Onu axtardılar və dərədə xırıldayıb son nəfəsini aldığı yerdə tapdılar. Gördülər ki, boğazında diş yerləri var. Ətrafa boylandılar və Alanın Kürə atıldığını gördülər. Onun arxasınca düşüb gülləyə basdılar. İt çayı üzüb cələyə keçdi. Sonra da ciləkənlərin arası ilə gözə görünməyən meşəyə adladı...".

İsmayıl Şıxlı "Ölən dünyam" romanının sonunda ağalığın, xanımlığın fəryadını da, keçəl Xondulunun Alan tərəfindən öldürülməsini də məharətlə qələmə almışdır.

Mənə elə gəlir ki, İsmayıl Şıxlının "Ölən dünyam" əsərindəki Halay bəy surəti onun atası Qəhrəman müəllimin, Həsən ağa surəti isə özünün obrazıdır.

İsmayıl Şıxlının "Ölən dünyam" əsərində də Kür çayı "Dəli Kür" əsərində olduğu kimi, şərti - metaforik obraz səviyyəsinə qədər yüksəlir. Bu barədə professor Təyyar Salamoğlu haqlı olaraq belə deyir: "Roman qəhrəmanlarında Kürə əsatiri bir inam vardır. Ölümə gedən də, xoşbəxtlik axtaran da üzünü Kürə tutur. Bu kəndin qaydası idi; İlin, ayın axır çərşənbəsində köhnə ili yola salanda baharın gəldiyini xəbər verən Novruzun ilk günündə dan yeri qızarar-qızarmaz axar suya - Kürə tökülüşərdilər. Su bumbuz olub adamı qılınc kimi kəssə də çimişər, ağırlıqları-uğurluqlarını yuyar, təzə ilə tərtəmiz gələrdilər".

İsmayıl Şıxlı dünyaya göz açanda (22 mart 1919-cu il) Azərbaycan Demokratik Cümhuriyyəti təzəcə qurulmuşdu. Onun atası, əmisi və digər qohumları (Qiyas ağa Şıxlı, Cavad ağa Şıxlı, Əliağa Şıxlinski və digərləri) Azərbaycan Cümhuriyyətinin fəal qurucuları olmuşdular. İsmayıl Şıxlı ömrünün əsas hissəsini Sovetləşmə dövründə (28 aprel 1920-ci ildən - 18 oktyabr 1991-ci ilə qədər) yaşamalı olmuşdur. O, gənclik illərindən başlayaraq çox qadalar, qırğınlar gördü, çox nalələr, fəryadlar eşitdi. 1942-ci ilin 15 sentyabrından 1945-ci ilin 23 noyabrına qədər isə müharibə odları, alovları arasından keçdi. Nəhayət, İsmayıl Şıxlıya ikinci dəfə də müstəqil Azərbaycan Respublikasında yaşamaq nəsib oldu. O, Azərbaycanın istiqlal savaşına qalxanlar, Məhəmməd Əmin Rəsulzadə yolunu ləyaqətlə davam etdirənlər, parlamentdə Azərbaycan müstəqilliyinə səs verənlər arasında da birincilərdən olmuşdur...

Mən insanlar öləndən sonra da onların ruhunun ölməzliyinə inanıram. Böyük Nizami də gözəl demişdir: "Ölmək ölmək deyil, yer dəyişməkdir". Qoy, bu yazımdan həm İsmayıl Şıxlının ruhu, həm də İsmayıl Şıxlı yaradıcılığını sevənlərin könlü və ruhu şad olsun!!!

**Fəzail İsmayıl BÖYÜKKİŞİ.**